# Ədəbiyyatımızın əbədi sərvəti

## *İlyas Əfəndiyev - 110*



*(Daycest)*

**Bakı – 2024**

*Altmış ildən çox yaradıcılıq yolu keçmiş görkəmli nasir, dramaturq, Əməkdar İncəsənət Xadimi, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli, Xalq Yazıçısı İlyas Əfəndiyev istedadlı bir yazıçı kimi Azərbaycan ədəbiyyatında silinməz izlər qoymuş, yazıb-yaratmış, sovet rejimi illərində, partiya qadağaları dövründə deyə və yaza bilmədiyi bir sıra mövzuları yeni zamanın kontekstində oxuculara təqdim etmişdir.*

*İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il mayın 28-də Füzuli şəhərində dünyaya göz açmışdır. 1921-ci ildə birinci sinfə gedən İlyas 1930-cu ildə pedaqoji təmayüllü iki dərəcəli orta məktəbi "əla" qiymətlərlə bitirmişdir. O, 1933-cü ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinin əyani şöbəsinə daxil olmuş, 1938-ci ildə bu ali təhsil ocağının coğrafiya fakültəsinin qiyabi şöbəsini bitirmişdir. Həmin ilin axırlarından İlyas Əfəndiyev Bakıda "Yeni yol", "Kommunist" və "Ədəbiyyat qəzeti" redaksiyalarında işləmişdir. Onun ilk mətbu əsəri olan "Buruqlar arasında" oçerki 1938-ci ilin noyabrında, eləcə də "Berlində bir gecə" adlı ilk hekayəsi "Ədəbiyyat qəzeti"nin 1939-cu il 26 yanvar tarixli nömrəsində dərc olunmuşdur. İlyas Əfəndiyevin 1939-cu ildə nəşr edilmiş "Kənddən məktublar" kitabı müəllifinə "ədəbiyyat dünyası"na çıxmaq səlahiyyəti vermişdir. Yazıçının ilk hekayələr kitabı onun orijinal fərdi ifadə tərzinin göstəricisi, daha sonra qələmə aldığı "Aydınlıq gecələr" isə müəllifin ədəbi-estetik görüşlərinin əsası kimi o dövrün ədəbi prosesinin maraqlı nümunələridir.*

*XX əsr Azərbaycan ədəbiyyatının əvəzolunmaz simalarından biri kimi tarixə düşmüş İlyas Əfəndiyevin zəngin nəsrinə "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan" və digər roman və povestləri, dramaturgiyasına "İşıqlı yollar", "Bahar suları", "Atayevlər ailəsi", "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Qəribə oğlan", "Mahnı dağlarda qaldı", "Bağlardan gələn səs" və başqaları daxildir. O, pyesləri ilə teatr sənətimizdə yeni bir mərhələ açmış, "İlyas Əfəndiyev teatrı"nı yaratmışdır. Ədibin qəhrəmanları ülvi məqsədləri, mübarizliyi, xarakterlərinin bütövlüyü, yaşadığı hisslərin, duyğuların təbiiliyi ilə yaddaşlara həkk olunmuşlar. Qətiyyətlə deyə bilərik ki, 60-cı illərdə səhnəyə gələn gənclərin püxtələşməsində İlyas Əfəndiyevin zəngin dramaturgiyasının böyük rolu olmuşdur. Ədibin pyesləri öz fikir zənginliyi, qaldırılan problemlər ilə həmişə tamaşaçıda maraq oyadır. Onun əsərlərinin ekranlara yol açması da bu baxımından qaçılmaz idi.*

*Azərbaycan teatr poetikası bədii-estetik dəyərini geniş mənada "İlyas Əfəndiyev teatrı"nda tapmışdır. Ədib özünün "Mahnı dağlarda qaldı", "Xurşidbanu Natəvan", "Şeyx Məhəmməd Xiyabani", "Hökmdar və qızı" və digər tarixi dramları ilə xalqımızın milli azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizənin, istiqlal məfkurəsinin, azadlıq hərəkatının, milli birliyin və müstəqilliyin bədii tərənnümçüsünə çevrilmişdir. İlyas Əfəndiyev "Hacı Axundun cənnət bağı necə oldu" hekayəsini, "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" povestini dərc etdirmiş, "Tənha iydə ağacı", "Dəlilər və ağıllılar" "Hökmdar və qızı" və digər pyeslərini tamaşaya qoydurmuş, bir sıra yeni kitablarını nəşr etdirmişdir.*

*Zəngin yaradıcılıq yolu keçmiş böyük sənətkar İlyas Əfəndiyev 1996-cı il oktyabrın 3-də Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.*

*İlyas Əfəndiyevin 110 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası yazıçı haqqında fondunda mövcud olan əsərlərinin, haqqında yazılan kitabların, dövrü mətbuatda keçən əsrdən günümüzə qədər haqqında çıxan məqalələrin tammətnli siyahısını bir araya toplayıb oxuculara təqdim edir.*

## İlyas Əfəndiyev şəkillərdə

| | | |
|---|---|---|
| <br>*İlyas Əfəndiyevin uşaqlıq şəkli.* | <br>*İlyas əfəndiyev gənclik illərində.* | <br>*Azərbaycan yazıçılarının III qurultayının iştirakçıları: İ.Əfəndiyev, M.Hüseyn, Ə.Vəliyev, Ə.Ələkbərzadə, ayaq üstə duranlar: İmamverdiyev H., İ.Şıxlı, N.Xəzri, İ.Qasımov və b. Dekabr 1958.* |
| <br>*Azərbaycan və Özbəkistan yazıçıları Mehdi Hüseyn, Şaverdin M.İ., Məmməd Rahim, Kamal Yaşen, Siqun, Qafur Qulam, İlyas Əfəndiyev və b. İliç buxtasında. 8 may 1960.* | <br>*M.P.Vaqifin 250 illiyinə həsr olunmuş SSRİ və Azərbaycan yazıçılarının birləşmiş plenumunun iştirakçıları rəyasət heyətində: İlyas Əfəndiyev, İmran Qasımov və b. 21noyabr 1968.* | <br>*SSRİ yazıçılarının II qurultayı nümayəndələrinin qeydiyyatı: ön planda İlyas Əfəndiyev və İmran Qasımov. 15-20 dekabr 1954.* |
| <br>*İ.Əfəndiyev Moskvada Sütunlu salonda keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünün rəyasət heyətində. 1959.* | <br>*Azərbaycan yazıçılarının VI qurultayının iştirakçıları: soldan-sağa: N.Xəzri, H.Abbaszadə, İ.Əfəndiyev, Ə.Vəliyev, İ.Qasımov, N.Qribarov, S.Rəhimov, S.Rüstəm fasilə zamanı. 26-27 may 1976.* | <br>*Azərbaycan yazıçılarının VI qurultayının iştirakçıları: solda-sağa - C.Novruz, İ.Əfəndiyev, S.Rəhimov, X.Hasilova, H.Abbaszadə və b. fasilə zamanı. 26-27 may 1976.* |

## İlyas Əfəndiyevin rəssamlar tərəfindən çəkilmiş portretləri


*Rəssam: Tofiq Ağababayev.*


*Rəssam : İsmayıl Əsədoğlu.*


*Rəssam : İsmayıl Əsədoğlu.*



*Rəssam : Böyükağa Mirzəzadə.*


*Naməlum rəssam.*


*Rəssam : Cabbar Qasımov.*


*Rəssam : Elşən Hacızadə.*


*İlyas Əfəndiyev - "Düşüncələr" silsiləsindən. Rəssam : İsmayıl Əsədoğlu.*

## İlyas Əfəndiyev tərəfindən deyilən sitatlar

- Anlaşılmayan, izah edilə bilməyən novatorluq yoxdur. Yalançı novatorluq istedadsızlıq əlamətidir.

- Azərbaycan ədəbiyyatı – tarixi, kökü olan bir ədəbiyyatdır. Bayağı ədəbiyyat isə zamanın hökmü ilə ölümə məhkum olur, yəni o ötəridir, əbədi deyil.

- Azərbaycan xalqı nəcib olduğu qədər də istedadlıdır, cəsurdur, mərddir.

- Bədii dil yazıçı istedadının aynasıdır. Sənətdə istedad - yalnız insana, heyvana, bitkiyə deyil, daşa, torpağa, qumlu çöllərə, okeanı yerindən oynadan fırtınalara da can, ruh verməkdir.

- Bədii formaları əbədi, sabit meyarlar kimi qəbul etmək olmaz.

- Bəşəriyyətin tarixi təkrar-təkrar göstərir ki, xalqı və onun azadlığını öldürmək, məhv etmək olmaz.

- Bizim baş mövzumuz insanın gələcək uğrunda fəaliyyətidir.

- Bizim xalq hər şeyi bağışlayır, ancaq qorxaqlığı yox.

- Dahi sənətkarların həqiqi varisi xalqdır.

- Dünyada böyük ədəbiyyatlar da, böyük sənətkarlar da çoxdur. Lakin hər bir həqiqi sənətkarı yaşadan, birinci növbədə onun əsərləri və xalqıdır.

- Əgər əsər qurudursa, oxucuda heç bir emosional təsir oyatmırsa, demək əsər deyil və bu barədə danışmağa dəyməz.

- Əgər kiçik lirik şeir həqiqi sənət əsəridirsə o heç zaman ictimai fikirdən kənarda qala bilməz.

- Əgər sən istedadlısansa, amma zəif, ortabab əsər yazmısansa, tarix, zaman, gələcək nəsillər səni bağışlaya bilərlər. Lakin sən xalqın sənətkarı olmaq iddiasındasansa, yalan yazırsansa taledən möcüzə, imdad gözləmə.

- Əgər yeddi canım olsaydı onun yeddisini də Vətənə qurban verib məhəbbətimdən keçməzdim. Lakin böyük yaradan bizə bir can verib.

- Əsrlərin sınağından çıxmış lirika həqiqi sənətin qanadıdır, ruhudur.

- Hansı formada yazırsansa yaz, lakin sənətkarlıqla, ürəklə yaz. Həyatı, onun doğurduğu psixologiyanı duyaraq, onun dərinliklərinə nüfuz edərək yaz.

- Həqiqi gözəllik üçün vicdan rahatlığı, vicdan saflığı lazımdır. Gözəllik həyatın ahəngidir, o saxtakarlıqla uyuşa bilməz.
- Həqiqi məhəbbət nə qədər böyük və güclü olsa da, qızılgül ləçəyi kimi zərifdir.
- Həqiqi sənətkarın qarşısında onun mənsub olduğu xalqın həyatı bir dərya kimi dayanmışdır.
- Hər bir sənətkar üçün mütaliə, müasir elmlərə, dünya ədəbiyyatına bələd olmaq, onun istedadı qədər vacib və zəruridir.
- Hər gənc ailənin gələcək səadəti birinci növbədə ailə başçısının ağıllı hərəkət etməsindən asılıdır.
- Xalqın ümumi idealı ilə bağlı olan, onun həyatına işıq saçan hər bir yazı tərzi, hər bir janr xeyirlidir.
- İstəksiz, məhəbbətsiz həyat gec-tez ikiüzlülüyə, saxtakarlığa, yalana çıxaracaq.
- İstər elmdə, istərsə də sənətdə irəliyə, yüksəlişə doğru yolu həmişə böyük istedadlar açmışlar.
- Keçilmiş yollardan keçənlərin izi çətin seçilər və tezliklə silinib gedər.
- Məsələ əsərin həcmində deyil, onun bədii dəyərində, ictimai mənasındadır.
- Müasir mövzu həqiqi, canlı, dolğun həyat deməkdir. Müasir mövzu müasir istedadlar deməkdir.
- Müasirlik sənətin mayasıdır.
- Müəllif öz adına və oxucuya hörmət etməlidir.
- Evdə ki, səmimiyyət yoxdur, orada həyat yoxdur.
- Öz xalqının ruhunu ifadə etməyən əsər başqa xalqlara da təsir edə bilməz.
- Öz Vətəninin keçmişini, indisini bilməyən, sevməyən adam ləyaqətli, bütöv insan ola bilməz.
- Sənətdə dahiliyin birinci sirri səmimiyyətin, ağıl və ehtirasın dərinliyində, idealın humanist mahiyyətindədir.
- Sənətdə qəlbin, ürəyin odu sənətkarın istedadıdır, qəlbləri riqqətə gətirən, ya qəzəbləndirən də bu əsrarəngiz qüvvədir.

- Tam inkişaf etdikdə insan təbiətə yaxınlaşır, onun sirlərinə daha dərindən valeh olmağa başlayır, özünü və özü ilə bağlı olan cəmiyyəti daha dərindən dərk edir.

- Teatr həmişə mənəvi yüksəliş aynası olmuşdur.

- Tənqidçi həqiqi sənətkarı onun özündən də dərin duyub dərk etməlidir. Onu kəşf etməlidir (əgər yazıçı bu kəşfə layiqdirsə).

- Vətən borcu, Vətən şərəfi o qədər böyük, o qədər müqəddəs bir hisdir ki, ona əmr etmək olmaz.

- Vətən məni köməyə çağırır. Mən onun övladıyam. Mən onun çağırışına çatmasam cəhənnəmlərə məhkum bədnam bir məxluq olaram.

- Vicdan rahatlığı hər şeydən gözəldir.

- Yazıçılıqda novatorluq, yeni yazı manerası və başqa cəhətlərlə bərabər, eyni zamanda yeni insan xarakterləri kəşf etmək deməkdir.

## İlyas Əfəndiyev öz müasirləri haqqında

“Onun əsərləri böyük xalq ürəyinin tərcümanı idi. Aydının, Oqtay Eloğlunun iztirabları, Elxan Biləgənlinin, Sevilin, Almazm mübarizəsi məhz Azərbaycan xalqının iztirabları, mübarizəsi idi. Cavan ərini sevə-sevə onun üçün hər bir fədakarlığa hazir ola-ola Dövlət bəylərin cəhənnəminə düşən Gültəkinin faciəsi keçmiş, məsum, fədakar Azərbaycan qadınının faciəsi idi. ***Cəfər Cabbarlı*** bütün ruhu ilə, bütün istedadı ilə Azərbaycan xalqına bağlı idi”.

“Həqiqi sənətkar səmimi olmaya bilməz. Xalq isə bu səmimiyyəti duymaqda fövqəladə həssaslığa malikdir. Xalq, deyək ki, dünya satirik poeziyasının ən amansız nümunələrini yaratmış, böyük Sabirdəki el dərdini duyduğu üçün ürəyində onun əbədi abidəsini yaratmışdır. Sənətkar səmimiyyəti sehrkar bir qüvvəyə malikdir. Heç bir tərif, heç bir mövzəçilik onu əvəz eləyə bilməz... Şaiqə sönməz maraq və hörmətin də əsl sirri bundadır! Biz ilk dəfə gözümüzü ***Abdulla Şaiq*** şeirləri, nağılları ilə açmışıq. İllər keçəcək, yeni-yeni nəsillər gələcək, Şaiq bizim üçün olduğu kimi, onlar üçün də həmişə əziz olacaq”.

**“*Səməd Vurğunun*** dili sanki Vətənimizin hər gülündən bir rəng, hər çiçəyindən bir ətir almışdır, sanki suların almaz parıltısından, dağların əzəmətindən, Azərbaycan günəşinin həyatverici istisindən gözəllik və qüvvət almışdır... Bu ahəng, bu musiqi, bu sadəlik sanki qəlbimizdə çırpınan duyğuların özüdür”.

“Məlumdur ki, şairin hökmü bədii təfəkkürün tərliyindən, romantik reallığından, zamanın pozitiv həqiqəti düzgün duymasından irəli gəlir! Həmişə ***Süleyman Rüstəm*** şeirinin forması məzmundan doğur, pafosun, coşqunluğun, fikrin vuruş sürətinə tabe olur”.

“Azərbaycan sovet poeziyasının yüksəlişində, şeirimizin zənginləşməsində, saflaşdırılmasında ***Rəsul Rza*** yaradıcılığının tarixi xidməti vardır. Onun poeziyası hər cür sadəlövh fəlsəfəçiliyə, saxta xəlqiliyə, ucuz heyranlığa zidd olan, həyatın real hadisələrindən doğub mərdanə romantika ilə uzaq üfüqlərə qanadlanan poeziyadır. Nə qədər ki, dilimiz yaşayır, nə qədər ki, poeziyaya mənəvi ehtiyacımız var, Rəsul Rza da bizimlə olacaq”.

**“*Osman Sarıvəllinin*** tərənnüm etdiyi hisslərdə, həyat lövhələrində daima insana xoş gələn bir təravət vardır. Onun rübabının səsi qocalara da, cavanlara da, ziyalılara da, azsavadlılara da təsir edir, həyəcanlandırır... Onun şeirlərindəki duyğular bahar gecələrinin ətirli nəsimi kimi ürəkləri oxşayır”.

**“*Mir Cəlalın*** geniş və xeyirli yaradıcılığı haqqında düşünməmək mümkün deyildir... O nədən yazırsa yazsın, daim səmimi olmuş, daim özünə, öz məslək və vicdanına sadiq qalmışdır. Mən hələ yazıçı olmadığım zamanlarda onun əsərlərini diqqətlə izlərdim. Mir Cəlalın əsərlərindəki səmimiyyət, doğruçuluq və ilıq həyati yumor həmişə məni cəzb edərdi”.

“O, insan qəlbinin, insan hisslərinin fövqəladə dərəcədə güclü bir tərcümanı kimi meydana çıxmışdı... ***Tolstoy*** bütün əsrlərin böyük sənətkarıdır!”

**“*Ostrovskinin*** həyatı və əsərləri dünya ədəbiyyatının maraqlı və ən təəccüblü hadisələrindən biridir. Bu həyat insan iradəsinin, həqiqi insan ləyaqətinin bir təntənəsidir”.

## İlyas Əfəndiyev teatr xadimləri haqqında

“Rəhmətlik ***Cəfər Cəfərov*** yalnız ona görə görkəmli teatrşünas deyildi ki, yüksək intellektə və kəsərli qələmə malik idi. Ona görə ki, bu cəhətləri ilə bərabər, o, səhnəni hiss edirdi. Yaşar Qarayev də belədir və təəssüf ki, o, son illərdə sırf ədəbiyyatşünaslıqla məşğuldur”.

“***Ədil İsgəndərov*** öz işində, necə deyərlər, bütöv sənətkar idi. Onun quruluşlarında, həll olunmamış mətləbə, tamamlanmamış epizoda rast gəlmək olmazdı. Heç bir detal onun nəzərindən yayınmazdı. O, realist bir sənətkar olmaqla bərabər, romantik idi. Onun səhnə realizmi qanadlı, şairanə bir realizm idi”.

“***Tofiq Kazımov*** təbiətən şairanə və olduqca həssas bir şəxsiyyət idi. İstər əsərdə, istərsə də aktyor oyununda psixoloji momentləri dərindən duyurdu və özü də həyatda belə idi. Yalançı pafosdan, zahiri təmtəraqdan, tamaşaçıları güldürmək üçün yalançı komizmdən bərk acığı gəlirdi və özü də həyatda belə idi. O, həqiqi sənət üçün yaranmış bir istedad idi... Əgər Tofiq Kazımovun və ***Mehdi Məmmədovun*** yaradıcılığını poetik dillə səciyyələndirmək olsaydı, Tofiq rejissorluqda lirik şairdir, Mehdi isə epik sənətkardır”.

“Mən onu ilk dəfə Xuraman rolunda görmüşəm. Onun müxtəlif psixoloji anlarda, tez-tez baş verən ruhi dönüş məqamlarında göstərdiyi ustalıq, məharət və incəlik mənə o qədər təsir etmişdi ki, teatrdan çıxandan sonra uzun müddət Xuraman gözümün qabağından çəkilmirdi... O, azərbaycanlı Xuramanı necə təbii yaradırsa, rus qadını Katerinanı da elə koloritik və gözəl ifa edir. ***Fatma Qədri*** geniş yaradıcılıq vüsətinə malik sənətkardır. ***Mərziyə Davudova***, Fatma Qədri, eləcə də ***Sofiya Bəsirzadə*** Azərbaycan dilini nəinki öyrəndiklərinə görə, bu dili hiss etdiklərinə görə, bu dilin rəngarəng koloritinə bələd olduqlarına görə Azərbaycan səhnəsinin doğma sənətkarlarıdır”.

“***Hökümə Qurbanova*** Antonionun zühuru ilə Misir çariçasının qəlbində başlayan məhəbbət tufanının o qədər təbii, o qədər həssas, o qədər dərin ehtirasla yaradır ki, adam səhnəni unudur, qarşısında yalnız sevən və bu sevgini bütün vücudu ilə hiss edən bir qadın görür. Bir an adama elə gəlir ki, onun bütün taxt-tacı bu məhəbbətin, bu ehtirasın qarşısında bir heçdir”.

“Yeri gəldi-gəlmədi “səhnə fədaisi” ifadəsini çox işlədirlər. Bəzən də o “fədai” şişirdilmiş “fədai” olur. Səhnə fədaisi ***Ağasadıq Gəraybəyli*** idi, ***İsmayıl Osmanlı*** idi, rəhmətlik ***Süleyman Tağızadə*** idi”.

“***Amaliya Pənahova*** dramaturqun demədiklərini, yəni Heminquey aysberqinin alt qatını görən, hiss edən və yaratmağı bacaran aktrisadır”.

“***Həsənağa Turabov*** səhnədə sadə, təmtəraqsız dildə danışdı və təmtərağın əldə edə bilməyəcəyi emosionallığı əldə etdi”.

“***Şəfiqə Məmmədovanın*** istedadı ilə savadı üst-üstə düşdüyü üçün səhnədə yaratdığı surətlər illər keçdikdən sonra da unudulmur və teatrımızda onun yeri görünür”.

“***Mərahim Fərzəlibəyov*** istedadlı rejissordur. Onunla işləmək mənim üçün asandır, çünki məni başa düşür və həmişə çalışır ki, bunu səhnədə də təcəssüm etdirsin. Çox zaman da istəyinə nail olur”.

“Mən təəssüf edirəm ki, rejissorlar ***Səyavuş Aslanın*** potensial imkanlarında yalnız komik qəhrəmanlar görürlər. Bu komikliyi bəzən hətta hırıltı əvəz edir. Ancaq onun böyük istedadını-açılmamış istedadını görüb və açıb klassik, tragik obrazlar yaratmaq olar. Bəlkə, heç Səyavuşun özünün də bundan xəbəri yoxdur”.

## Görkəmli şəxsiyyətlər İlyas Əfəndiyev haqqında

“İlyas Əfəndiyevin əsərləri həm səlis, gözəl bədii dilinə, həm dərin məzmununa görə, həm də yüksək sənətkarlığına görə fərqlənir, oxucuya böyük estetik təsir bağışlayır. Onun kitablarında həm körpüsalanların çətin işi, həm neftçilərin qəhrəman əməyi, həm müasir kəndin həyatı, həm də Azərbaycan ziyalıları arasında mənəvi-psixoloji proseslər inandırıcı şəkildə və dərindən əks edilmişdir. Öz yaradıcılığında yazıçı cəmiyyətimizin mənəvi təşəkkülünü və inkişafını diqqətlə izləyir, onun mənasını açıb göstərir, bugünkü həyatımız üçün də, gələcək həyat üçün də nümunə olan adamların parlaq obrazlarını yaradır. O öz sənətkarlığı ilə zəhmətkeşlərin mənəvi tərbiyəsində fəal iştirak edir”.

“İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu əsərlərdən çox bəhrələnmişdir. Ona görə də mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır. Şübhəsiz ki, biz İlyas Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün qərarlar da qəbul edəcəyik, şəxsən mən edəcəyəm, çünki o, buna layiqdir. Belə əsərlərlə o, onsuz da, özünü xalqın qəlbində yaşadacaqdır”.

**Heydər Əliyev**

“İlyas Əfəndiyev klassik ədəbi fikrin böyük ənənələri zəminində öz üslubunu yaradan sənətkar kimi xalqımızın söz sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Yazıçının bədii nailiyyətlərlə zəngin irsi ədəbiyyatımızda yeni mərhələnin təşəkkülünə səmərəli təsir göstərmişdir. Azərbaycan teatr səhnəsinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası özünəməxsus əhəmiyyətli yer tutur”.

**İlham Əliyev**

“Həm Elçinin, həm də Anarın yaradıcılıq aləmlərinin formalaşmasında Azərbaycan ədəbi mühitindən başqa, onların atalarının - XX əsr Azərbaycan ədəbiyyatı klassikləri - Rəsul Rzanın və İlyas Əfəndiyevin böyük rolu olmuşdur”.

**Çingiz Aytmatov**

“İlyas Əfəndiyev öz yaradıcılıq xüsusiyyətlərinə sadiq qalaraq təbii insan psixologiyasını təbii və sadə boyalarla göstərir”.

**Mehdi Hüseyn**

“Azərbaycan ədəbiyyatşünaslığı, ədəbi tənqidi və oxucular xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığına daim müraciət edəcəklər. Çünki böyük ədibin yaradıcılığı nəinki özünün yaşadığı dövrün ictimai, siyasi, sosial, mədəni, mənəvi problemlərini daim diqqətlə saxlayırdı, həm də xeyli hallarda psixoloji gərilmələr və kataklizmlərlə müşayiət olunan məsələlərə yeni ideya-axtarış

istiqamətlərində fərqli rakurslardan münasibət sərgiləyirdi. Məhz bu keyfiyyətinə görə, onun yaradıcılığının müasirlik düşüncəsində daim yer alacağı şübhə doğurmur”.

**Nizami Tağısoy**

“İlyas Əfəndiyev qüdrətli sənətkar idi.

İlyas Əfəndiyev qayğıkeş ata idi.

İlyas Əfəndiyev gözəl baba idi.

İlyas Əfəndiyev gözəl dost idi”.

**Tofiq Quliyev**

“Elə sənətkarlar var ki, yaratdığı əsər, fərqi yoxdur, pyes olsun, tablo olsun, insanı düşündürür, onun hisslərinə hakim kəsilir, gözəlliklər aləminə çəkib aparır, haqq-ədalət uğrunda mübarizəyə səsləyir, həqiqəti axtarıb tapmaqda ona kömək edir. Mənim hörmətli dostum İlyas da belə sənət adamlarındandır”.

**Tahir Salahov**

“İlyas Əfəndiyev özü bədii yaradıcılığında görkəmli sərkərdə olduğu kimi, övladlarını da sərkərdə kimi yetişdirmiş, sərkərdə kimi tərbiyə etmişdir. Biri (Elçin) nəsrimizin sərkərdəsidir, biri də (Timuçin Əfəndiyev) sənətşünaslığımızın”.

**Fuad Qasımzadə**

“İlyas Əfəndiyevin bütün əsərlərində... al-əlvan rənglərə, naxışlara rast gəlirik. O, zəngin təfəkkürə, geniş müşahidə qabiliyyətinə malik sənətkarlardandır. Həm də, mən deyərdim ki, bəstəkar qəlbli sənətkardır”.

**Səid Rüstəmov**

“İlyas Əfəndiyev canlılığı yaratmaq üçün heç bir boyasını əsirgəməmişdir”.

**Cəfər Xəndan**

“Azərbaycan sovet şeirinin təməlini qoymuş Süleyman Rüstəmlə Səməd Vurğunun, Rəsul Rzanın arasında kökü dərinliklərə yayılması, gövdənin birliyi, yekparəliyi nöqteyi-nəzərindən bir birlik, vahidlik, budaqların eyni göy üzünə ayrı-ayrı tərəflərdən uzanması nöqteyi-nəzərindən isə ayrılıq vardır. Bir-birinə həm oxşayırlar, həm oxşamırlar. Mirzə İbrahimovla Hüseyn Mehdinin nəsri haqqında da, ustad Cəfər Cabbarlının və İlyas Əfəndiyevin dramaturgiyası haqqında da eyni şeyi söyləmək mümkündür”.

**Nazim Hikmət**

“İlyas Əfəndiyev əməkçilərin zəhmət birliyini böyük məhəbbətlə və hərarətlə təsvir edir, onların zəhmətini parlaq və real boyalarla göstərir... Biz «Bahar suları» əsərini onun şeriyyətinə görə sevirik, bir daha inanırıq ki, həyatımızda yalnız maddi nəhənglər deyil, eyni zamanda yeni, zəngin, həm də gözəl bir insan mənəviyyatı yaradılır”.

**Səməd Vurğun**

“Məşhur "Dədə Qorqud" dastanlarının, Nizami, Səməd Vurğun, İlyas Əfəndiyev kimi ədəbi klassiklərin əsərlərinin Litva dilinə tərcüməsi sayəsində Azərbaycanın mədəniyyəti və xalqınızın müdriklik xəzinəsi bizim üçün daha yaxın və anlaşıqlı olmuşdur”.

**Valdas Adamkus**

“Böyük sənətkarlıq səriştəsinə və zəngin təxəyyülə malik İlyas Əfəndiyev həqiqəti bir an da unutmur, tariximizdə bu günü, bu günümüzdə isə tariximizin problemlərini əks etdirir”.

**Fərəməz Maqsudov**

“Atam Abdulla Şaiq İlyas Əfəndiyevi bir sənətkar və insan kimi çox sevir, istedadını yüksək qiymətləndirirdi. İlyas müəllim də atam haqqında gözəl və dəyərli məqalələr yazıb, ona ehtiram bəsləyirdi”.

**Kamal Talıbzadə**

“İlyas Əfəndiyev yalnız nasir və dramaturq deyil, eyni zamanda oxucu ürəyinin ən dərin tellərini titrətməyi bacaran incə qəlbli şairdir, lirika ustasıdır”.

**Xəlil Rza Ulutürk**

“İlyas müəllimin yoxluğundan ürək ağrısı ilə söhbət açanda, daha qüvvətli bir duyğu qəlbimi bürüyür: İlyas müəllim yaşayır, Azərbaycan xalqı kimi, Cəfər Cabbarlı kimi, Hüseyn Cavid kimi”...

**Leyla Bədirbəyli**

“Bizim İlyas Əfəndiyev kimi nəhəng bir dramaturqumuz olub. Demək olar ki, teatr İlyas Əfəndiyevin hörməti ilə yaşayıb, teatrı onun əsərləri, onun zəkası, onun hörməti saxlayıb”.

**Səyavuş Aslan**

“60-cı illərdə əgər İlyas Əfəndiyev Azərbaycan teatrına gəlməsəydi, ümumiyyətlə, bizim bu sənət növü olmayacaqdı. Bu sözün dəqiqliyinə tamamilə əminəm və təkrar edirəm ki, nə yaxşı İlyas Əfəndiyev teatra gəldi”.

**Həsənağa Turabov**

“İlyas Əfəndiyev fenomeni zəngin bir aləmdir. Dalğalı, qasırğalı bir ümmandır”.

**Nəbi Xəzri**

## İlyas Əfəndiyevə həsr olunmuş şeirlər

**Başını uca tut!**

Yalnız özü üçün yaşayanların,
Alnı açıq olmur, üzü ağ olmur.
Vətəni qəlbində daşıyanların,
Ömür bağçasının gülləri solmur.

Biz vəcdə gəlmişik həyat güləndə,
Zirvələrdə yanıb söz məşəlimiz.
Yox, yox, yorulmayıb yeri gələndə,
Qələmi silahtək tutan əlimiz.

Könül! Bu şənlikdə fərəhlən, öyün,
Ünvanı aydındır sevincimizin.
Gümrahdan da gümrah görürük bu gün,
Mahir ustadını söz incimizin.

Dostumuz nə zaman doğulub deyə,
Söhbət yaşdan gedir yenə bu axşam.
Yaşı mən biləntək təhlil etməyə,
İcazə veriniz mənə bu axşam.

Bir yaş calansa da yaş üstə hər il,
Bunu dərd eləmək nahaqdır,nahaq.
Dostumun yaşını – pasporta deyil,
Ürəyinə baxıb görürəm ancaq.

Qocalıq, cavanlıq yaşla deyidir,
Cavanlar görmüşəm qocadan qoca.
Yaşı bəlli edən nə ay, nə ildir,
Dostum, başını tut ucudan uca!

İlyas! Bu şad gündə Süleyman kimi,
Ömrünün ən qaynar çağındasan sən.
Uğurlu yollarda mərd insan kimi,
Xəzansız ilk bahar çağındasan sən.

Həmişəcavan gör özünü, dostum,
Bu, xoş məsləhətdir dostlardan, məndən.
Yoruldum, qocaldım sözünü, dostum,
Dilinə gətirsən küsərik səndən!

***Süleyman Rüstəm***

**İlyas**

Daş atanlar az olmadı
Bu kişinin əkdiyinə.
Sevənlərdən yaza-yaza
Çəkildi öz təkliyinə.

Hərdən yaşla doldu gözü,
Bir cüt gölə döndü gözü,
Hərdən elə döndü üzü –
Daş mat qaldı bərkliyinə.

Dünyayla küsdü-barışdı,
Ağ varağa könül açdı,
Qarışdı, ruhu qarışdı
Ağ varağın paklığına…

***Ramiz Rövşən***

**İlyas dədə**

Yazdıqca yazdın,
Min bir sınaqdan çıxdın.
Ana yurda öz evin,
Bağın-bağçantək baxdın.

Əzizlədin mərdləri,
Namərdə yol açmadın.
Heç kəsin ürəyini
Köntöy sözlə sancmadın.

Əfəndilər çox idi –
Baş əfəndi sən oldun.
Vətənin dərdlərilə
Qəlbin, fikrin tən oldu.
Nə yazdınsa, oxucun
Oxuyanda şən oldu.

Əsl sənət övladı,
Ustadların ustadı
Sayıldın İlyas dədə.

Sən mənə «adaş» dedin,
Mən sənə «ata İlyas».
Adına layiq olub
Etmədi xata İlyas.
Zəmanəyə dov gəlib
Yetdi murada İlyas.
Önündə baş əyəcək
Böyük ustada İlyas,
O yaddan çıxa bilməz –
Düşəcək yada İlyas!
Unudulmaz heç vədə –
Bu günün, həm sabahın
Oğludur İlyas dədə!

***İlyas Tapdıq***

**Məhəmməd oğlu İlyas**

Böyük sənətkarımız
İlyas Əfəndiyevin işıqlı ruhuna

Üzündə, gözündə
peyğəmbər nuru vardı,
Saçları rüzgardan qopmuş dalğalardı.
Yerindəydi danışığı, gülüşü, yerişi,
Əfsanəydi, möcüzəydi bu kişi.

Burulğanlı, tufanlı günlərdən
Şimşək kimi sıyrılıb çıxdı
Məhəmməd oğlu İlyas,
Böhtanlardan, iftiradan uzaqdı
Məhəmməd oğlu İlyas!

Duyğuları şeh kimi
Səpildi ömrünün yarpaqlarıına,
O dağların, dərələrin
büllur bulaqlarına.

Hərdən qanrılıb geriyə baxanda
Gizli bir sızıltı keçdi ürəyindən…
Yox, üzmədi əllərini
Sevdalı günlərinin ətəyindən.

Könüllərdən-könüllərə
sevgi körpüsü saldı,
Ülvi istəklərin
fövqündə ucaldı.

Hələ oxunmamış neçə mahnısı qaldı –
orda – dağlarda,
O dağların arxasında
qalan dostları harda?

Bir dənizdi, dalğasıyla,
Bir aləmdi, qovğasıyla,
Bir ürəkdi, sevdasıyla,
Sirrini bilən oldumu?

Zəmisi, xırmanı vardı,
Dəni, dəyirmanı vardı,
Öz dərdi, dərmanı vardı,
Dərdini bölən oldumu?

Ömür yolu – halal, haqdı.
Qismət bildi belə bəxti.
Qılıncsız vuruşan vaxtı
Hayına gələn oldumu?

Ruhunda – Araz, Köndələn,
Sarı sim üstə köklənən,
Baharda doğulub gələn,
Payızda ölən oldumu?

Köksündə bir Qarabağ
düyünü qövr elədi,
Gördü bu fələk belədi.
Əlində ələk elədi…
Hər gecə şam kimi
yandırdı barmaqlarını.
Sonra işıq kimi
Səpdi qaranlıqlara könül varını.

İndii doğma yuvasından
ucalır fəxri, vüqarı,
Nur balaları –
Elçini, Timuçini,
Nəvəsi, nəticəsi…
Rəngi solmayan səsi.
İndii otağı darıxır,
Qələmi, varağı darıxır,
Gecələr onunla yanan
Kövrək çırağı darıxır.

O qanadlar
səmada görünməz indi.
O göylər üfüqlərə endi…
Məkanını dəyişmiş planetdi
Məhəmməd oğlu İlyas.
Dostu-yarı tərk eləmiş
Bir ömür qatarından düşüb getdi
Məhəmməd oğlu İlyas…

***Ramiz Məmmədzadə***

**Adın gələndə**

Sözlər əzizlənir adın gələndə,
Ey ustad, Tanrıya ucalır sözün.
Deyən arzusuna çatır qələmlər,
Həzin duyğuların açılır gözü.

«Dağlar arxasından» əl edir «üç dost»,
Dağlar – xan qızının «Büllur sarayı».
İlişib «dağlarda qalan mahnını»
Daha nə axtaraq, nə də arayaq.

Daşsın gözümüzdən «Bahar suları»,
Su deyil, qan axsın «Söyüdlü arxdan».
Nahaqca qurutduq axar suları,
Bu qanı su ilə yuduq nahaqdan.

«Üçaçılan» qınında qalıb paslanır,
«Salınan körpülər» laxlayır daha.
Cavanlar sabahı görmək istəmir,
«Qocalar geriyə baxmayır» daha.

«İşıqlı yollardan» keçdi min kərə,
«Mənim günahım»ın sınağı yoxdur.
Baxıram «Məhv olmuş gündəliklərə»,
«Qəribə oğlan»ın günahı yoxdur.

Sözlər əzizlənir adın gələndə,
Ey ustad, Tanrıya ucalır sözün.
Deyən arzusuna çatır qələmlər,
Həzin duyğuların açılır gözü.

***Məmmədli Firuzə***

**Geriyə baxma, qoca...**

- Salam, yavrum, İlyas bəy!
- Ah, anamın səsidi…
Pıçıl-pıçıl açılan
Güllərin nəğməsidi.
- Geriyə baxma, qoca!
- Necə?
Nə dedin?
Qoca?!
- Açın,
qapını
açın!
- Ay uşaq, yoldan qaçın!
- Baxşəli bəy!
Vəli bəy!
- Geriyə baxma, qoca!
Baxsan…
Qırılır yuxu,
axır gedir buludlar…
Yaxşı ki, bu dünyada
Yaxşı-yaxşı kişilər,
Yaxşı-yaxşı umud var.
Umud var ki, qayıda
Şahsevən atlıları.
Əriyib, yoxa çıxan
Qıratın qanadları.
Qanadlana bəy qızı
Gümüştelli Bilqeyis,
Uzana karvan yolu
Qarabağ,
Gəncə,
Təbriz…
Uzana nağıl kimi
Ərzurumun yolları.
Dolana boynumuza
Anamızın qolları.
Yaza, yoza yüz yerə
Dünyanın taleyini,
Qarabağlı balası.
Ucala qəlbimizdə
Azərbaycan qalası:
«Əziziyəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ
Dünya cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ…»
Yaddan çıxmaz torpağın
Taleyini yazanlar.
İlahi bir səs deyir:
- Sən səbr elə, yazan var.
Yazan var, sözlərini
Qəlbinə, ürəyinə.
Halallıq qatılıbdı
Bu xalqın çörəyinə,
- Eheyy!
Dayan!
Səs gəlir:
- Geriyə baxma, qoca!
Baxıram,
İlyas müəllim
Dayanıb dağdan uca!..

***Zülfüqar Şahsevənli***

**Ay dədə İlyas**

Sadə ömür sürdün, sadə dolandın,
Könüllərdə qalan əsərlər yazdın.
Əbədilik, daimilik qazandın,
Ölməz sənətkarsan, ay Dədə İlyas.

Yazdığın əsərlər qəlblərdə qaldı,
Ölməz surətlərin səhnədə qaldı.
Mahnıların bizim dağlarda qaldı,
Ölməz sənətkarsan, ay Dədə İlyas.

Səhnəmizə yeni nəfəs gətirdin,
Yeni duyğu, yeni həvəs gətirdin.
Tanrı deyən işıqlı səs gətirdin,
Ölməz sənətkarsan, ay Dədə İlyas.

Səni əsərlərin, yaşadacaqdır,
Dünya dəyişsə dəo, qalacaqdır.
Nə qədər ki, xalqın yaşayacaqdır,
Ölməz sənətkarsan, ay Dədə İlyas.

Xeyirxah işlərin yaddan çıxarmı?
Səhnədə mizanın heç pozularmı.
İlyas Əfəndiyev unudularmı,
Ölməz sənətkarsan, ay Dədə İlyas.

***Hidayət Nur***

## Kitabları

Geriyə baxmağa dəyər : İlyas Əfəndiyev haqqında məqalələr, esselər, xatirələr. - Bakı : Təhsil, 2014. - 424 s.

Kənddən məktublar. - Bakı : Azərnəşr, 1939. - 121 s. - köhnə latın əlifbası ilə.

Sariköynəklə Valehin nağılı : Roman. - Bakı : Gənclik, 1979. - 328 s. – kiril əlifbası ilə.

Seçilmiş əsərləri : 3 cilddə. I cild. – Bakı : Avrasiya Press, 2005. – 289 s.

Seçilmiş əsərləri : 3 cilddə. II cild. – Bakı : Avrasiya Press, 2005. – 335 s.

Seçilmiş əsərləri : 3 cilddə. III cild. – Bakı : Avrasiya Press, 2005. – 448 s.

## Əsərləri dövrü mətbuatda

Apardı sellər Saranı : əfsanə // Savalan. – 2018. – 13-16 aprel. - № 20.

Mənliyimiz və mədəniyyətimiz : Son yetmiş ildəki mənəvi aləmimizə bir nəzər // Ədəbiyyat qəzeti. – 1991. – 11 yanvar. - № 2. – S. 6.

## Haqqında kitablarda

**Əfəndiyev Ə.** İlyas Əfəndiyev : biblioqrafik göstərici. - Təkmilləşdirilmiş və yenidən işlənmiş 2-ci nəşri. - Bakı : Çinar-Çap, 2002. - 240 s.

**Xanoğlan V.** İlyas Əfəndiyev və Azərbaycan mədəniyyəti. - Bakı : Elm və Təhsil, 2013. - 336 s.

İlyas Əfəndiyev : Yaddaş kitabçası. - Bakı : Azərbaycan Milli Kitabxanası, 2023. - 104 s.

İlyas Əfəndiyev: şeirə sığmayan ömür. - Bakı : Təhsil, 2010. - 203 s.

**Salahova A.** İlyas Əfəndiyev yaradıcılığının poetikası. - Bakı : Yazıçı, 1984. - 136 s. - kiril əlifbası ilə.

Sənətkarın ikinci ömrü : İlyas Əfəndiyev. Beş ilin salnaməsi. - Bakı : Çinar-Çap, 2002. - 248 s.

## Haqqında dövrü mətbuatda

**Abbaslı T.** Əbədi ədib : Bayatı qədər qədim və hər an gələcəyə işləyən əbədiyyət saatı kimi müasir – İlyas Əfəndiyev! // Mədəniyyət. – 2015. – 27 may. – S. 11.

**Abbasov İ.** Yeniliklər carçısı // Xalq qəzeti. – 2001. – 3 oktyabr.

**Abdullazadə A.** Bir ömrün poeziyası // İctimai mühit. – 1994. – 6 sentyabr. – S. 3.

**Anar.** Keçən günlərin xiffəti : İlyas Əfəndiyev – 95 // Ədəbiyyat qəzeti. – 2009. – 28 may. – S. 3.

**Aydınoğlu T.** Dön geri bax, qoca! : İ. Əfəndiyev – 80 // Xalq qəzeti. – 1994. – 14 iyun.

Azərbaycanın xalq yazıçısı İlyas Əfəndiyevin 90 illiyinə həsr olunmuş yubiley gecəsi // Xalq qəzeti. – 2004. – 21 noyabr. – S. 4.

**Azəri L.** Əbədi yaşamaq haqqı : Xalq yazıçısı İlyas Əfəndiyevin vəfatından 20 il ötür // Mədəniyyət. – 2016. – 30 sentyabr. - № 74. – S. 11.

**Bülbüloğlu P.** Siz həmişə bizimləsiz! // Xalq qəzeti. – 1997. – 3 oktyabr.

**Cabbarov N.** Həyat və sənət eşqi yaşa baxmır // Azərbaycan müəllimi. – 1989. – 7 iyun.

**Cəfərsoy A.** İlyas Əfəndiyev – 100 kitabı işıq üzü görüb // Kaspi. – 2014. – 28 noyabr. - № 199. – S. 10.

Çətinliklərə dözməyə məcburuq : Xalq yazıçısı İlyas Əfəndiyevlə müsahibə // Ədəbiyyat qəzeti. – 1992. – 6 noyabr. - № 45. – S. 5.

**Dünyaminqızı Q.** Sən həmişə bizimləsən // 2013. – 9 oktyabr. – S. 15.

Əbədiyaşar sənətkar // Respublika. – 2007. – 3 oktyabr. – S. 6.

**Əfəndiyev Ə.** İlyas müəllimsiz ilk kitab // Azərbaycan. – 1999. – 27 noyabr.

**Əfəndiyev T.** İlyas Əfəndiyev və Azərbaycan mədəniyyəti // Mədəniyyət. – 2006. – 20 oktyabr. - № 40-41. – S. 10.

**Əhmədalılar T.** Obrazlarüstü... : Ədəbi-bədii "özgə"lər yarada-yarada "öz" əbədi realını da yaratmış ədib... // Mədəniyyət. – 2013. – 2 oktyabr. – S. 7.

**Əliyev V.** Dilə hakim sənətkar : İlyas Əfəndiyev – 90 // Ədəbiyyat qəzeti. – 2004. – 5 noyabr. – S. 2.

**Əlizadə M.** İyirmi birinci əsrin dramaturqu // Ədəbiyyat qəzeti. - 2021. - 22 may. - № 19/20. - S. 8-9.

**Əlizadə M.** Sözlü adam // Mədəniyyət. – 2009. – 2 oktyabr. – S. 12.

**Əlizadə M.** Zamana məxsus sənətkar... // 525-ci qəzet. – 2018. – 26 may. - № 95. – S. 14.

**Əmircanova Q.** Xalq yazıçısı İlyas Əfəndiyev haqqında düşüncələr // Respublika. – 2013. – 3 oktyabr. – S. 7.

**Əmrahoğlu A.** Geriyə qürurla baxmağa haqqı olan sənətkar // Xalq qəzeti. – 2009. – 8 oktyabr. S. 7.

**Əsgərzadə L.** Həmişə bizimlə olan ədib // Mədəniyyət. – 2017. – 4 oktyabr. - № 77. S. 10.

Görkəmli şəxsiyyətlər İlyas Əfəndiyev haqqında // Xalq qəzeti. – 2004. – 19 noyabr. – S. 6.

Görkəmli yazıçı-dramaturqun xatirəsi // Xalq qəzeti. – 1997. – 4 oktyabr.

**Hacılı S.** Ədibin yaradıcılıq yolu // Ədəbiyyat qəzeti. – 1992. – 19 iyun.

**Həmidova S.** İlyas Əfəndiyev – XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri // Yeni Azərbaycan. – 2014. – 20 fevral. - № 31. – S. 6.

**Həsənzadə N.** Mənim şairim : İlyas Əfəndiyevin əziz xatirəsinə // Ədəbiyyat qəzeti. – 2016. – 8 oktyabr. – S. 8.

**Həşimov A.** Ədəbi-tarixi yaddaşın təntənəsi : 26 may Xalq yazıçısı İlyas Əfəndiyevin doğum günüdür // Mədəniyyət. – 2017. – 26 may. - № 40. – S. 10.

**Hüseynoğlu S.** Nəsrimizin dünya ədəbiyyatına açılan pəncərəsi // Ədəbiyyat qəzeti. – 2016. – 1 oktyabr. - № 36. – S. 9.

**Hüseynoğlu S.** Yazıçıya yaz demirdi, yarat deyirdi... // Ədəbiyyat qəzeti. – 2011. – 27 may. - № 19. – S. 2.

**Xanlarova Z.** İnsan duyğularının ustad tərənnümçüsü // Azərbaycan. – 2000. – 3 oktyabr.

**Xanoğlan V.** İlyas Əfəndiyev : yaxından və uzaqdan // Xalq qəzeti. – 2010. – 9 fevral. – S. 7.

**Xanoğlan V.** İlyas Əfəndiyev və Azərbaycan mədəniyyət quruculuğu // Xalq qəzeti. – 2011. – 2 oktyabr.

**Xanoğlan V.** İlyas Əfəndiyev və bədii yaddaşda istiqlal düşüncəsi // Xalq qəzeti. – 2012. – 26 may. – S. 10.

**Xanoğlan V.** Sən həmişə bizimləsən, ustad : İlyas Əfəndiyev – 100 // Xalq qəzeti. – 2014. – 1 iyul. - № 137. – S. 10.

**Xəlilzadə F.** Azərbaycan nəsrinin şirin dili : İlyas Əfəndiyev – 90 // Azərbaycan : qəzet. – 2004. – 2 oktyabr. – S. 5.

**Xəlilzadə F.** Bədii gülüstanın solmayan çiçəkləri : İlyas Əfəndiyev yaradıcılığı Azərbaycan ədəbiyyatının boyçiçəyidir // Kaspi. – 2016. – 28-31 may. - № 93. – S. 7.

**Xəlilzadə F.** Bədii Qarabağnamənin əbədiyaşar müəllifi // Xalq qəzeti. - 2023. - 3 oktyabr. - № 214. - S. 12.

**Xəlilzadə F.** Bəstəkar qəlbli sənətkar // Xalq qəzeti. – 2015. – 3 oktyabr. - № 14. – S. 10.

**Xəlilzadə F.** Ədəbiyyatımızın boyçiçəyi : İlyas Əfəndiyev və Şuşa // Kaspi. – 2012. – 3 oktyabr. S. 11-12.

**Xəlilzadə F.** Ədəbiyyatımızın əbədi sərvəti // Xalq qəzeti. – 2016. – 2 oktyabr. - № 216. – S. 7.

**Xəlilzadə F.** Ədəbiyyatın solmayan çiçəkləri // Azərbaycan : qəzet. - 2009. – 26 may. – S. 6.

**Xəlilzadə F.** Görkəmli ədib obyektiv tənqidçi kimi də tanınırdı // Azərbaycan. – 2005. – 15 noyabr. – S. 8.

**Xəlilzadə F.** Gülüstanın solmayan çiçəkləri // Azərbaycan. – 2003. – 4 oktyabr. – S. 8.

**Xəlilzadə F.** İlyas Əfəndiyev və teatr // Azərbaycan. - 2004. – 27 may.

**Xəlilzadə F.** Sabahlara doğru // Mədəniyyət. – 2006. – 28 oktyabr. - № 42-43. – S. 6.

**İlkin Q.** Yoxluğu hiss edilən adam // Azərbaycan müəllimi. – 1998. – 8 oktyabr.

İlyas Əfəndiyev Fondu beynəlxalq qeyri-hökümət təşkilatı statusu almışdır // Xalq qəzeti. – 2011. – 12 may.

İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (16 yanvar 2014-cü il) // Respublika. – 2014. – 17 yanvar. – S. 1.

**İmanova S.** Və mahir kinossenarist // Azərbaycan müəllimi. – 2001. – 12-18 aprel.

**İsmayıloğlu A.** Dramaturq səmimiyyəti ilə // Ədəbiyyat qəzeti. – 2010. – 21 may. – S. 2.

**Kərimov İ.** Həmişəyaşar sənətkar : İ. Əfəndiyevin vəfatından on il keçdi // Azərbaycan müəllimi. – 6 oktyabr. – S. 5.

**Kərimova S.** Şirin kədərin sevinci : İlyas Əfəndiyev – 80 // Azərbaycan : qəzet. – 1994. – 27 may.

Körpüsalanlar alman dilində : [Xalq yazıçısı İlyas Əfəndiyevin 1960-ci ildə yazdığı "Körpüsalanlar" romanı kitabı haqqında] // Ədəbiyyat qəzeti. - 2019. - 21 dekabr. - № 50/51/52. - S. 3.

**Qabil.** Fədai : Xalq yazıçısı, qüdrətli dramaturqumuz İlyas Əfəndiyevə // Ədəbiyyat və incəsənət. – 1986. – 11 aprel.

**Qabil.** Sən ey qadir məhəbbət... // Ədəbiyyat qəzeti. – 1997. – 29 avqust. - № 34. – S. 3.

**Qarayev Y.** Zaman sənətkar yaddaşında : İlyas Əfəndiyev – 75 // Kommunist. – 1989. – 26 may.

**Qocayeva A.** Yazıçı əsərlərinin dil və üslub xüsusiyyətlərinə böyük məsuliyyətlə yanaşırdı : İlyas Əfəndiyevin əsərlərinin bir nəslin formalaşmasında müstəsna xidmətləri olmuşdur // İki sahil. – 2007. – 3 oktyabr. – S. 6.

**Qoşalı Ə.** Cəmiyyətin mənəvi təşəkkül və inkişafına kamil yazıçı baxışı : İlyas Əfəndiyevin vəfatından 19 il ötür... // Yeni Azərbaycan. – 2015. – 3 oktyabr. - № 180. – S. 6.

**Qoşalı Ə.** Yaradıcılığını barışa, haqqa həsr edən böyük yazıçı – İlyas Əfəndiyev // Yeni Azərbaycan. – 2015. – 26 may. - № 93. – S. 6.

**Quliyev V.** Üzü gələcəyə gedən sənətkar // Panorama. – 1997. – 4 oktyabr. - № 191.

**Quliyev V.** Zamanı qabaqlayan sənətkar : Xalq yazıçısı İlyas Əfəndiyevin anadan olmasının 75 illiyi // Bakı. – 1989. – 27 may. – S. 3.

**Maqsudov F.** Gələcəkdən gəlmiş adam... // Azərbaycan müəllimi. – 1997. – 2 oktyabr.

**Məmmədli C.** Dünənin, bu günün, sabahın ustad sənətkarı : İlyas Əfəndiyevin doğum gününə // Xalq qəzeti. – 2017. – 27 may. - № 113. – S. 9.

**Məmmədov Ə.** Çağdaş Azərbaycan ədəbiyyatında İlyas Əfəndiyev zirvəsi // İki sahil. – 2012. – 3 sentyabr. – S. 10.

**Məmmədov Ş.** İstedadlı yazıçı, qüdrətli dramaturq : Xatirəsi əbədiləşdirilən sənətkar // Azərbaycan müəllimi. – 2001. – 12-18 aprel.

**Mirməmməd G.** Unutmayacağımız insan // Panorama. – 1997. – 4 oktyabr. - № 191.

**Mükərrəmoğlu M.** İlyas Əfəndiyevin barelyefi açıldı // Xalq qəzeti. – 2003. – 9 aprel.

**Mütəllibov T.** Bir zirvənin ünvanı // Azərbaycan gəncləri. – 1989. – 27 may.

**Nəcəfxanlı Ə.** Geriyə baxıb, irəlini görən ədib - İlyas Əfəndiyev // Xalq qəzeti. - 2023. - 26 may. - № 110. - S. 10.

**Salahova A.** Bir qoca vardı... // Azərbaycan gəncləri. – 1981. – 21 aprel. – S. 3.

**Salamoğlu T.** İlyas Əfəndiyev fenomeni tarixi mövzu və milli-mənəvi dəyərlər konteksində : İlyas Əfəndiyev – 95 // Xalq qəzeti. – 2009. – 7 iyun.

**Salmanov Ş.** Sənətkarın mövqeyi : İlyas Əfəndiyev – 85 // Xalq qəzeti. – 1999. – 7 dekabr.

**Sarıhüseynoğlu V.** Bir yazın yaralı durnası : "Bahar buludları" müəllifi, ustad İlyas Əfəndiyevə // Ədəbiyyat qəzeti. - 2021. - 6 mart. - № 10. - S. 22-23.

Sənət ülviyyətinə sədaqət : İlyas Əfəndiyev – 80 // Xalq qəzeti. – 1994. – 20 may.

**Sərvaz.** Nəsrin lirik nəfəsi : İlyas Əfəndiyev - 95 // Ədəbiyyat qəzeti. – 2009. – 5 iyun. – S. 4.

**Şahin S.** Sənətkara layiq təqdimat // Azərbaycan müəllimi. – 1992. – 8 may. – S. 4.

**Şəmsizadə N.** Ədəbiyyatın əbədiyyətini fəth etmiş yazıçı : İlyas Əfəndiyev – 95 // Mədəniyyət. – 2009. – 22 may. – S. 12.

**Şəmsizadə N.** İlyas Əfəndiyev və Azərbaycan mədəniyyəti : Yazıçını şəxsiyyət və mədəniyyət prizmasından öyrənən monoqrafiya // Xalq qəzeti. – 2013. – 15 sentyabr. – S. 7.

**Şəmsizadə N.** Mənəvi gözəllik üçün cavabdehlik : İlyas Əfəndiyevin sənət konsepsiyası // Xalq qəzeti. – 2009. – 28 may. – S. 7.

**Şəmsizadə N.** Tarixə güvənən müasirlik // Xalq qəzeti. – 2012. – 3 oktyabr. – S. 6.

**Şəmsizadə N.** Zirvədən zirvəyə və əbədiyyətə : İlyas Əfəndiyev – 90 // Xalq qəzeti. – 2004. – 19 noyabr. – S. 6.

**Tağısoy N.** Əsrlərin, nəsillərin müasiri // Ədəbiyyat. – 2017. – 7 oktyabr. – S. 18.

**Tahir S.** Əbədiyyəti gözlərimlə gördüm // Azərbaycan. – 1998. – 3 oktyabr.

**Talıbzadə A.** Düşüncənin dramı və ya Sən həmişə mənimləsən // Ədəbiyyat. – 2004. – 20 fevral.

**Vahid T.** Şəxsiyyəti ilə yaradıcılığı bir-birini tamamlayan yazıçı : 3 oktyabr XX əsr Azərbaycan ədəbiyyatının klassiklərindən sayılan Xalq yazıçısı İlyas Əfəndiyevin anım günüdür // Mədəniyyət. – 2011. – 30 sentyabr. – S. 7.

**Yaqub Z.** Atamın sevimli yazıçısı // Xalq qəzeti. – 2009. – 26 may. – S. 10.

**Yusifli V.** İlyas Əfəndiyevi xatırlayarkən : "Köhnə kişilər" silsiləsindən // Ədəbiyyat qəzeti. - 2019. - 15 iyun. - № 20. - S. 10-11.

**Tərtib etdi :** **Ağayeva İranə**